| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 30.11.2020 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 466 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 41 nömrəli, "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 dekabr tarixli 584 nömrəli, "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 5 yanvar tarixli 1 nömrəli, "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın təsdiq edilməsi haqqında" 2018-ci il 23 yanvar tarixli 21 nömrəli və "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 64 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 03-12-2020, Nəşr Nömrəsi: 253), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2020, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1409) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 03.12.2020 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 220.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14202011300466 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 09.12.2020 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 41 nömrəli, "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 dekabr tarixli 584 nömrəli, "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 5 yanvar tarixli 1 nömrəli, "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın təsdiq edilməsi haqqında" 2018-ci il 23 yanvar tarixli 21 nömrəli və "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 64 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 2, maddə 294; 2018, 4, maddə 819, 11, maddə 2432; 2019, 3, maddə 517, 12, maddə 2071) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.3-cü bəndinin birinci cümləsinə "Səhiyyə Nazirliyi tərəfindən" sözlərindən sonra "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 12 (II kitab), maddə 2531; 2018, 8, maddə 1798; 2019, 5, maddə 944; 2020, 4, maddə 481) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.3-3.9-cu və 3.11-ci bəndlər ləğv edilsin;

2.2. 14.1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.2-14.9-cu bəndlər əlavə edilsin:

"14.2. Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu;

14.3. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi;

14.4. K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu;

14.5. Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu;

14.6. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu;

14.7. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu;

14.8. V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu;

14.9. Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 5 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 1, maddə 118, 12 (II kitab), maddə 2741) ilə təsdiq edilmiş "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3.4-cü yarımbənddə və 2.5-ci bənddə "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2. həmin Normalara 3 nömrəli əlavə - "Məhəllədaxili, təhsil, səhiyyə, mədəni-məişət, sənaye müəssisələrinin və digər obyektlərin tikintilərinin layihələndirilməsi zamanı məhdud istifadəli yaşıllıqların ərazi balansı" üzrə:

3.2.1. adında "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2.2. "Məhdud istifadəli yaşıllıqların yerləşdiyi obyektlər" sütununun üçüncü sətrində "Səhiyyə" sözü "Tibb" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 23 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 1, maddə 137) ilə təsdiq edilmiş "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın 3.1.2-ci yarımbəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 fevral tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 2, maddə 367, 11, maddə 2433) ilə təsdiq edilmiş "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın 8.3-cü bəndində "ərazi üzrə səhiyyə müəssisəsi" sözləri "ərazi üzrə dövlət tibb müəssisəsi" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 noyabr 2020-ci il
466